Hörmətli Pərviz müəllim və MAK Şirkətlər Qrupunun rəhbərliyi,

İlk növbədə 25 aprel - 13 iyun 2009-cu il tarixlərində «Sığorta şirkətlərində daxili audit xidmətinin yaradılması üzrə tədris seminarı»nı təşkil etdiyiniz üçün Sizə dərin minnətdarlığımızı bildiririk.

Tədris seminarı texniki və təşkilati baxımından çox uğurlu keçmişdir. İştirakçı olaraq qeyd etməliyəm ki, tədris seminarı mənim üçün çox maraqlı keçmişdir. Tədris seminarının vaxtı uğurla seçilmiş, sığorta qanunvericiliyin tələblərinin qüvvəyə minməsindən qısa bir zaman ərzində həyata keçirilmişdir. Beləliklə, daxili audit xidmətini yaratmaq istəyən sığorta şirkətləri üçün bu sahədə bir növ bələdçi olaraq onlar tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

Tədris seminarının təlimçisi olaraq Pərviz müəllim tədris zamanı iştirakçıları kifayyət qədər nəzəri biliklər və texniki materiallarla təmin etmiş, praktiki məşğələlər zamanı meydana çıxan sualları cavablandırmaqla, iştirakçıların nəzəri biliklərinin möhkəmlənməsində böyük rol oynamışdir.

Tədris seminarının təşkili metodu uğurla seçilmiş, təlimçinin bu sahədə səriştəsi və təcrübəsi də seminarın uğurlu keçməsini təmin etmişdir.

Tədris seminarında beynəlxalq təcrübədən də misallar gətirilmiş, şirkətlərin qarşılaşabiləcəği problemlər müzakirə edilmiş, bu da ilk növbədə yuxarıda sadalananlarla birlikdə sığorta şirkətlərində gələcəkdə daxili audit layihələrinin həyata keçirilməsi üçün bir növ maddi-texniki bazanın bünövrəsinin yaradılması kimi hesab etmək olar.

Hörmətlə,

Imran Abdullayev
Internal Auditor

Pərviz bəy,
Mənim 25 aprel – 13 iyun 2009-cu il tarixlərində Mak Consuıtancy Baku LTD. tərəfindən keçirilən "Sığorta şirkətlərində daxili audit xidmətinin yaradılması" üzrə 64 saatlıq təlim kursu barədə rəyim aşağıdakı kimidir:
"İştirak etdiyim bu təlim kursu mövzunun aktuallığı, sığorta şirkətlərində yeni yaranmaqda olan Daxili audit xidmətinin formalaşdırılması və müxtəlif yerli sığorta şirlətlərinin təcrübəsi və beynəlxalq təcrübə mübadiləsi baxımından çox əhəmiyyətli idi. Hesab edirəm ki, həmin kursda qarşıya qoyulmuş əsas məqsədlərə tam nail olunmuşdur. Belə ki, kursun proqramı sığorta şirkətlərində daxili audit xidmətinin yaradılması, onun iş rejimi, risklərin qiymətləndirilməsi, şirkətlərin srtukturundan asılı olaraq ayrı-ayrı departamentlər üzrə daxili auditin təşkili, auditora işin qurulması üçün lazım olan sənədlərin tərtibatı və təcrübədə rast gəlinən problemli məsələləri əhatə edirdi. Müzakirələr əsasən təlimin proqramına uyğun aparılmış və vaxt imkanı düzgün qiymətləndirilərək səmərəli şəkildə icra olunmuşdur.
Xüsusilə qeyd etməliyəm ki, təlim kursu yalnız mühazirələrdən ibarət deyil, eyni zamanda praktiki məşğələləri və ev tapşırıqlarının müzakirəsini də əhatə etmişdir ki, bu mənə öz zəif və güclü tərəflərimi müəyyən etməyə köməklik etmişdir. Təlim zamanı əldə etdiyim biliklər və təcrübə mənə işimdə çox yararlı olduğu üçün bütün təşkilatçılara və təlimin aparıcılarına dərin minnətdarlığımı bildirirəm."

Gunel Abbasova
Legal and HR Senior Assistant
Pasha Insurance

# “SIĞORTA ŞİRKƏTİNDƏ DAXİLİ AUDİT XİDMƏTİNİN YARADILMASI”






2 5 2009










13 6 2009


13 6 2009


13 6 2009